

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 207 (23.369)

2 noyabr 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## İqtisadiyyatın dinamik inkişafı təmin edilmişdir

Son dövrlər muxtar respublikada əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər, qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası, rəqabətədavamlı və ixracyönümlü yeni məhsullar istehsal edən müəssisələrin fəaliyyətə başlaması və digər mühüm tədbirlər ümumi inkişafı daha da sürətləndirmişdir.

Əldə olunmuş uğurları xarakterizə edən mühüm göstərici kimi 2019-cu ilin yanvar-sentyabr aylarında muxtar respublikada 2 milyard 61 milyon 770 min 900 manatlıq ümumi daxili məhsul istehsal edilmişdir ki, bu da 2009-cu ilin müvafiq dövründəki göstəricidən 3,2 dəfə çoxdur.

*Yanvar-sentyabr ayları üzrə ümumi daxili məhsul, milyon manat*




2019-cu ilin yanvar-sentyabr aylarında ümumi daxili məhsulun 56,4 faizi və ya 1 milyard 162 milyon 516 min 200 manatı məhsul istehsalından, 41,7 faizi və ya 860 milyon 577 min 500 manatı xidmətlərin istehsalından, 1,9 faizi və ya 38 milyon 677 min 200 manatı isə məhsula və idxala xalis vergilərdən yaranmışdır. 2009-cu ilin müvafiq dövründə ümumi daxili məhsulun 50,4 faizi məhsul istehsalından, 44,6 faizi xidmətlərin istehsalından, 5 faizi isə məhsula və idxala xalis vergilərdən yaranmışdır. 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə məhsul istehsalının artımı sənaye, kənd təsərrüfatı və tikinti sahələrində həyata keçirilən effektiv tədbirlər nəticəsində əldə edilmişdir.

2009-cu ilin müvafiq dövründə ümumi daxili məhsulun tərkibində topdan və pərakəndə ticarət sahəsi ilk yerdə təmsil olunurdusa, 2019-cu ilin ötən dövründə sənayenin payı daha çox olub. Sənayenin ümumi daxili məhsulun tərkibində ilk yerdə təmsil olunması muxtar respublika iqtisadiyyatının istehsal potensialının yüksəldiyini göstərən mühüm göstəricidir.

Sənayenin artımı ilə yanaşı, bu dövrdə daxili bazarın tənzimlənməsində mühüm sahə olan kənd təsərrüfatının inkişafı da diqqətdə saxlanılmış, məhsul istehsalının həcmi 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər haqqında" 2017-ci il 22 noyabr tarixli və 2019-cu il 18 yanvar tarixli sərəncamlarının icrası, 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması, ailə təsərrüfatlarının inkişafı istiqamətində həyata keçirilən digər tədbirlər iqtisadiyyatın, xüsusilə də aqrar sektorun inkişafına yeni imkanlar yaradır.

İnfrastruktur quruculuğu tədbirləri, yeni istehsal və xidmət sahələrinin yaradılması nəticəsində 2019-cu ilin yanvar-sentyabr aylarında əsas kapitala vəsait qoyuluşu 2009-cu ilin müvafiq dövründəki göstəricini 2,6 dəfə üstələyərək 790 milyon 838 min 900 manat olmuşdur. Ümumilikdə, 2010-cu ildən 1 oktyabr 2019-cu il tarixədək muxtar respublikada bütün sahələrin inkişafına 9 milyard 23 milyon manatdan çox vəsait yönəldilmişdir ki, bunun da 8 milyard 159 milyon manatdan çoxu tikinti-quraşdırma işlərinin payına düşüb.



Muxtar respublikada iqtisadiyyatın hərəkətverici qüvvəsi sayılan sahibkarlığın inkişafı məqsədilə təkcə 2019-cu ilin yanvar-sentyabr aylarında təsərrüfat subyektlərinə 20 milyon 386 min 400 manat dəyərində kreditlər verilmişdir. Kreditlərdən 8 milyon 339 min 500 manatı yeni istehsal sahələrinin



yaradılmasına və ya genişləndirilməsinə, 12 milyon 46 min 900 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Ümumilikdə, 2010-cu ildən 1 oktyabr 2019-cu il tarixədək muxtar respublikada iqtisadi fəaliyyətin bütün sahələrinə 504 milyon manata yaxın kredit qoyuluşu həyata keçirilib.

Artan əhali tələbatına uyğun olaraq 2010-cu ildən 1 oktyabr 2019-cu il tarixədək muxtar respublikada 35 min 449 yeni iş yeri yaradılmışdır.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Sahibkarlığın inkişafı və səmərəli məşğulluq əhali gəlirlərinin artımını təmin etməklə yanaşı, xidmət sektorunun da inkişafına imkan yaratmışdır. Belə ki, 2009-cu ilin yanvar-sentyabr ayları ilə müqayisədə informasiya və rabitə xidmətləri və nəqliyyat sektorunda yükdaşınması hər iki halda 1,8 dəfə, pərakəndə əmtəə dövriyyəsi 3,9 dəfə, əhaliyə göstərilən ödənişli xidmətlər isə 2,9 dəfə artmışdır.

Müqayisə olunan dövrdə yerli istehsalın inkişafını xarakterizə edən digər bir göstərici kimi ixrac 4,6 dəfə artmış, idxal isə 23,6 faiz azalmışdır.

Muxtar respublikada davamlı iqtisadi tərəqqinin təmin edilməsi məqsədilə həyata keçirilən uğurlu siyasət iqtisadi potensialın daha da gücləndirilməsini, əhalinin məşğulluq və sahibkarlıq imkanlarını daha da artırmaqdadır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## "İdeyadan başlanğıca" devizi altında növbəti tədbir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamına uyğun olaraq gənclər tərəfindən "İdeyadan başlanğıca" devizi altında hazırlanmış layihələrin (startapların) dəyərləndirilməsi, həmçinin muxtar respublikada könüllülük fəaliyyətinin ictimai, sosial və tərbiyəvi əhəmiyyətinin, sosial könüllülüyə gənclərin təşviqinin və sosial məsuliyyət hissinin artırılması istiqamətində işlər davam etdirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə növbəti tədbir keçirilib.

Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev "İdeyadan başlanğıca" layihəsi çərçivəsində görüləcək işlər haqqında məlumat verib. Nazir qeyd edib ki, "Sosial Könüllülük Akademiyası"nı uğurla başa vuran gənclər bundan sonra da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq tədbirlərinə könüllü kimi cəlb olunacaqlar. Nicat Babayev layihəyə yeni cəlb edilən könüllülərə uğurlar arzulayıb.

Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev sosial könüllülük layihəsinin həyata keçirilməsinin əhəmiyyətini qeyd edib. Bildirib ki, könüllülük fəaliyyəti sosial sahədə çalışacaq könüllülərin yetişdirilməsi və gələcəkdə onların dövlət qurumlarında işlə təmin olunması imkanlarının artırılmasından ibarətdir.

Gənclər adından çıxış edən Səma Muradova göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Daha sonra sosial könüllülərin ötən dövr ərzində fəaliyyətini əks etdirən slayd nümayiş etdirilib, layihəni uğurla başa vuran məzunlara diplomlar təqdim olunub.

Tədbirin növbəti hissəsində gənclər tərəfindən "İdeyadan başlanğıca" devizi altında hazırlanmış layihələrin təqdimatı keçirilib, fikir mübadiləsi aparılıb.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Mərasim evi sakinlərin istifadəsinə verilib

*Naxçıvan Muxtar Respublikasında bütün sahələrlə yanaşı, dini-mənəvi dəyərlərin qorunması, yeni məscid və mərasim evlərinin tikilməsi də diqqət mərkəzində saxlanılır. Şərur rayonunun Çərçiboğan kəndində tikilib istifadəyə verilən 350 yerlik mərasim evi də bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır.*



Ümumi sahəsi 450 kvadratmetr olan mərasim evi 2 zal və 2 mətbəxdən ibarətdir. Mətbəx və zallarda lazımi şərait yaradılıb. Burada 200 yer kişilər, 150 yer isə qadınlar üçün nəzərdə tutulub. Mərasim evi mərkəzləşmiş qaydada istilik sistemi ilə təmin olunub, həyəti abadlaşdırılıb, bulaq abidə tikilib, oturacaqlar qoyulub, həmişəyaşıl dekorativ ağaclar və gül kolları əkilib.

Çərçiboğan kənd mərasim evinin istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə əvvəlcə "Qurani-Kərim"dən ayələr oxunub, şəhidlərimizin ruhuna dualar edilib. Mərasim evində ehsan süfrəsi açılıb. Kənd sakinləri göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, bu il may ayının 10-dan tikintisinə başlanılan mərasim evinin inşa edilməsində kənd sakinləri də yaxından iştirak ediblər.

**Məhəmməd FƏRƏCOV**

## Vakant vəzifələrə işə qəbul üçün test imtahanları keçirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən muxtar respublikanın dövlət ümumi təhsil müəssisələrindəki vakant vəzifələrə (psixoloq, laborant, kitabxana müdiri, kitabxanaçı, tərbiyəçi və uşaq birliyi təşkilatının rəhbəri) işə qəbul üçün 4 sentyabr 2019-cu il tarixdə elan edilmiş müsabiqənin test imtahanlarına start verilib.

Müsabiqəyə çıxarılmış 148 vakant vəzifənin tutulması üçün 225 namizəd sənəd təqdim edib. Test imtahanında iştirakçılara 80 sual təqdim olunur, sualları cavablandırmaq üçün 120 dəqiqə vaxt verilir. Keçirilən imtahanlarda test tapşırıqlarının ən azı 50 faizini (40 bal) düzgün cavablandırmış namizədlər müvafiq keçid balını toplamış hesab olunacaqlar. Səhv cavablar düzgün cavablara təsir etmir. Qanunvericiliyə əsasən keçid balını yığmaqla ən yüksək bal toplamış şəxs müvafiq vəzifəyə təyin olunacaqdır.



Ali və orta ixtisas təhsilli namizədlər tərəfindən eyni bal toplanıldıqda, ali təhsilli namizədə, keçid balını toplamış namizədlərin hamısı ali təhsilli və ya orta ixtisas təhsilli olduqda ixtisas fənni üzrə daha çox bal toplayan namizədə üstünlük verilir. İxtisas fənni üzrə toplanılan bal eyni olduqda pedaqoji stajı daha çox olan, pedaqoji staj eyni olduqda isə diplom göstəriciləri daha yaxşı olan namizədə üstünlük verilir. Hər hansı bir səbəbdən göstərilən vaxtda müsabiqədə iştirak etməyənlər üçün təkrar imtahan keçirilmir.

Vakant vəzifələr üzrə aparılan test imtahanları elektron proqram təminatı vasitəsilə keçirilir. İmtahanlarda obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə videoçəkiliş aparılır. Test imtahanı bitdikdən dərhal sonra iştirakçılara nəticəyə dair arayış təqdim edilir.

Nəticələr gündəlik olaraq Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında (*www.dqmk.nmr.az*) yerləşdirilir. Test imtahanları 7 noyabr 2019-cu il tarixədək davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

# Bu il muxtar respublikada

## Ailə təsərrüfatlarına ixracyönümlü məhsul istehsal etmək üçün hərtərəfli şərait yaradılıb

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyası bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir. Ötən dövrdə muxtar respublikada daxili imkanlardan istifadə olunmaqla iqtisadi inkişaf təmin edilmiş, yeni istehsal müəssisələri fəaliyyətə başlamışdır. Xüsusilə aqrar sahəyə göstərilən hərtərəfli dövlət qayğısı nəticəsində kənd təsərrüfatı məhsullarının istehsal həcmi artmış, daxili bazarın keyfiyyətli məhsullarla təminatı diqqət mərkəzində saxlanılmışdır. Son dövrlərdə kənd təsərrüfatı məhsulları istehsalında daha çox diqqəti cəlb edən birgə fəaliyyət formalarından biri də ailə təsərrüfatlarıdır. 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan edilməsi isə belə təsərrüfat sahələrinə lazımi dövlət qayğısının göstərilməsi ilə yanaşı, onların fəaliyyətlərinin stimullaşdırılmasına da yeni imkanlar açmışdır. Xüsusilə ailə təsərrüfatları tərəfindən istehsal olunmuş məhsulların satışı və ixracı hazırda diqqət mərkəzində olan əsas məsələlərdəndir. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu məsələ ilə bağlı aid dövlət qurumları qarşısında mühüm tapşırıqlar qoymuşdur.

Bəs bu istiqamətdə hazırda hansı işlər görülür? Məsələyə aydınlıq gətirmək üçün Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Xudakərim Məmmədov və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Texniki tənzimləmə və standartlaşdırma şöbəsinin müdiri vəzifəsini icra edən Əli Şərifova müraciət etdik.

*– Bildiyiniz kimi, bu il muxtar respublikamızda “Ailə təsərrüfatları ili” elan olunub. Təbii ki, burada əsas məqsəd belə təsərrüfatları inkişaf etdirməkdir. Muxtar respublikada fəaliyyət göstərən ailə təsərrüfatlarının inkişaf etdirilməsi, o cümlədən belə təsərrüfatlarda istehsal olunan məhsulların satışına və ixracına köməkliklər göstərilməsi ilə bağlı tapşırıqların icrası istiqamətində hansı işlər görülür?*

**Xudakərim MƏMMƏDOV:** – Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən muxtar respublikada fəaliyyət göstərən ailə təsərrüfatları ilə bağlı bir neçə istiqamətdə iş aparılır. Belə ki, bu təsərrüfatların mövcud vəziyyəti, istehsal potensialının təkmilləşdirilməsi, ixrac qabiliyyətinin artırılması və beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində nazirliyin müvafiq şöbələri tərəfindən araşdırmalar həyata keçirilir. Hazırda diqqət mərkəzində olan məsələlərdən biri də belə təsərrüfatlar tərəfindən istehsal olunmuş məhsulların satışı ilə bağlıdır. Əhalinin ucuz və keyfiyyətli məhsullara olan tələbatının ödənilməsi, istehsalçıların öz məhsullarının birbaşa istehlakçılara çatdırılması məqsədilə hər həftə paytaxt Naxçıvan şəhərində və rayon mərkəzlərində təşkil edilən kənd təsərrüfatı yarmarkalarında yerli sənaye məhsulları ilə yanaşı, ailə təsərrüfatı məhsullarının da satışına geniş yer verilir. Bundan əlavə, ənənəvi olaraq hər il Naxçıvan şəhərində keçirilən “Ailə təsərrüfatı məhsulları” festivalı da təsərrüfat sahiblərinin öz məhsullarını tanıtmaq və satışını təşkil etmək baxımından böyük əhəmiyyət daşıyır.

**Əli ŞƏRİFOV:** – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”na əsasən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən də bu sahədə müvafiq işlər görülür. Bunlar, əsasən, istehsal olunan məhsulların keyfiyyətinə nəzarət, onların qablaşdırılması və etiketlənməsinə müvafiq köməkliklər göstərilməsindən ibarətdir. Bununla yanaşı, ailə təsərrüfatı məhsullarının muxtar respublika üzrə geniş arealda mövcudluğu və əlçatanlığı nəzərə alınaraq yüksək tələbatı özündə ehtiva edən digər satış bazarlarına çıxış imkanları da təşviq olunmuşdur. Artıq bu istiqamətdə Bakı və Gəncə şəhərlərində “Naxçıvan məhsulları” əmtəə nişanı ilə fəaliyyət göstərən 4 yeni mağaza yaradılmışdır. Muxtar respublikada istehsal olunan və dayanıqlı imicə malik ailə təsərrüfatı məhsullarına tələbatın yüksək həddi qarşılığında qənaətbəxş satış göstəricilərinə nail olunmuşdur. Ötən müddətdə adıçəkilən mağazalar şəbəkəsi vasitəsilə qurudulmuş, paketlənmiş və xüsusi qaydada etiketlənmiş meyvə və tərəvəz məhsullarının tələbata uyğun olaraq satışı təmin olunmuşdur.

*– Hazırda ən aktual məsələlərdən biri də ailə təsərrüfatı məhsullarının ixracı ilə bağlıdır. Bu istiqamətdə hansı işlər görülür?*

**Xudakərim MƏMMƏDOV:** – Bildiyiniz kimi, ixracyönümlü məhsul istehsalında ilk olaraq rəqabətədavamlılıq prinsipləri önə keçir. Bu baxımdan həmin ailə təsərrüfatları ilə müxtəlif görüşlər təşkil olunub, onların bu və ya digər məsələlərlə bağlı məlumatlandırılması tərəfimizdən həyata keçirilmişdir. Məsələn, ailə təsərrüfatlarının beynəlxalq tədbirlərdə iştirak imkanları araşdırılmış, Naxçıvan Biznes Mərkəzində keçirilən tədbirlərdə ailə təsərrüfatı sahiblərinin iştirakı təmin edilmiş, onlar istehsal etdiyi məhsulların ixracı, kataloqunun hazırlanması və ölkə daxilində, eləcə də xaricdə keçirilən tədbirlərdə sərgilənməsi istiqamətində maarifləndirilmişlər. Bundan əlavə, ailə təsərrüfatı sahibləri ilə görüşlərdə onlar ölkə daxilində və xaricdə keçirilən sərgilərdə öz məhsullarının nümayişi, ixracının təşviqinin təmin edilməsi istiqamətində məlumatlandırılmışlar.

**Əli ŞƏRİFOV:** – Ailə təsərrüfatı məhsullarının ixracı bizim qurum tərəfindən də həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Məsələn, bu il “Naxçıvan qovurması” istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi məqsədilə ailə təsərrüfatı sahibləri ilə seminar-müşavirələr keçirilmiş, onlara “Naxçıvan qovurması” əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. Nəticədə, cari ilin ötən dövründə “Naxçıvan məhsulları” mağazalar şəbəkəsi vasitəsilə “Naxçıvan qovurması” məhsulunun tələbata uyğun həcmdə ixracı istiqamətində satışı həyata keçirilmişdir. Muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının yüksələn iqtisadi aktivliyi tərəfimizdən ciddi qaydada dəstəklənir və fəal marketinq trendi davamlı təşviq olunmaqdadır.

*– Ailə təsərrüfatı məhsullarının ixracı üçün daha hansı imkanların olduğunu düşünürsünüz?*

**Xudakərim MƏMMƏDOV:** – Bu istiqamətdə Türkiyə Respublikasının Naxçıvana tətbiq etdiyi güzəştli ticarət rejimi çərçivəsində muxtar respublikada istehsal olunan kənd təsərrüfatı və qida məhsullarının gömrük rüsumu tətbiq olunmadan qonşu ölkəyə ixracı imkanı yaradılmışdır. Bu da, öz növbəsində, əsasən, kənd təsərrüfatı sahəsində çalışan ailə və fermer təsərrüfatları üçün yeni bazarlara çıxış imkanı yaratmışdır.

**Əli ŞƏRİFOV:** – Ailə təsərrüfatı məhsullarının laboratoriya yoxlamalarında əldə olunan müsbət nəticələr onu deməyə əsas verir ki, istehsal olunan məhsullar rəqabətədavamlıdır və qısa müddətdə xarici bazarlarda özünə yer tuta bilər. Buna görə də ailə təsərrüfatlarının ixracyönümlü məhsul istehsal etmək üçün geniş imkanları var. Ümid edirəm ki, bu və ya digər istiqamətlərdə görülən işlər gələcəkdə ailə təsərrüfatı məhsullarının ixracına da yeni imkanlar açacaq.

*– Müsahibə üçün sağ olun.*

## Dövlət dəstəyi ailə təsərrüfatlarının kiçik sahibkarlıq subyektlərinə çevrilməsinə geniş imkanlar açır





Azərbaycan cəmiyyətində ailə hər zaman müqəddəs qurumlardan sayılıb. Çünki əsrlərdən gələn ənənələrə görə, ailədaxili münasibətlərdə fərdlərin bir-birinə münasibəti qarşılıqlı inam və güclü əlaqələrlə müşahidə olunur. Bu baxımdan ailə üzvlərinin hər hansı bir sahədə kollektiv əməyinin formalaşması da bu inama söykənir. Buna görədir ki, ailənin birgə əməyinə əsaslanan ailə təsərrüfatı birlikləri dünyada ən qədim və ən çox yayılan biznes forması hesab edilir. Bu gün inkişaf etmiş ölkələrdə təsərrüfatların 70, 80, bəzən isə 90 faizini ailə biznesi şirkətləri təşkil edir. Və büdcə daxilolmalarında bu şirkətlərin payı yetərincədir. Uzun illərin dünya təcrübəsi də göstərir ki, ilk növbədə, ailə təsərrüfatı kimi fəaliyyətə başlayan, sonra isə ailə biznesinə çevrilən şirkətlər dayanıqlılıq baxımından yüksək rentabelliyə malikdir. Təsadüfi deyil ki, bu gün dünya iqtisadiyyatına təsir edən “Ford”, “Siemens”, “Adidas”, “Samsung Electronics” kimi şirkətlərin meydana gəlməsində də ailə bizneslərinin rolu böyük olub. Buna görə də bu biznesin ilkin əsasını təşkil edən ailə təsərrüfatı institutu inkişaf etmiş və etməkdə olan ölkələrdə ciddi şəkildə dəstəklənir.

Naxçıvan Muxtar Respublikasında da son illərdə bu sahənin inkişafına böyük diqqət göstərilir, dövlət tərəfindən ailə təsərrüfatlarının inkişaf etdirilməsi üçün müxtəlif layihələr həyata keçirilir. 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunmasını, belə təsərrüfatların iqtisadi inkişafdakı rolunu nəzərə alaraq dövlət tərəfindən onların fəaliyyətlərinin stimullaşdırılması, genişləndirilməsi üçün güzəştli kreditlərin verilməsi davam etdirilir. Məsələn, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin məlumatına görə, bu ilin yanvar-sentyabr ayları ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilmiş layihələrdən heyvandarlıq, quşçuluq, arıçılıq təsərrüfatı, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, yabanı növ bitkilərin tədarükü, qablaşdırılması, süd məhsullarının emalı və qablaşdırılması, unlu-qənnadı məmulatların paketlənməsi üçün xammalın və taranın alınması, qovurmanın qablaşdırılması məqsədilə 39 ailə təsərrüfatına 381 min 400 manat həcmində dövlət maliyyə dəstəyi göstərilib. Digər tərəfdən, ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışı üçün əlverişli şərait yaradılıb, muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində ənənəvi olaraq hər il “Ailə təsərrüfatı məhsulları” festivalı təşkil olunur. Həmçinin muxtar respublikada fəaliyyət göstərən ərzaq satışı obyektlərində “Ailə təsərrüfatı məhsulları” guşələri yaradılıb ki, bu da təsərrüfat sahiblərinin istehsal etdikləri məhsulların satışına öz müsbət təsirini göstərir.

Bütün bunlar onu deməyə əsas verir ki, dövlət ailə təsərrüfatlarının inkişaf etdirilməsində maraqlıdır. Çünki ailə təsərrüfatları, ilk növbədə, vətəndaşın, eləcə də onun ailə üzvlərinin məşğulluğunu təmin edir. Yəni vətəndaş, belə deyək ki, heç bir qapını döyməmədən özü özünə iş tapır. Eyni zamanda belə fəaliyyət növü peşəkar vərdişlərin yiyələnməsinə geniş imkanlar açır. Bu isə, öz növbəsində, ailə üzvlərinin bir neçə istiqamətdə təcrübə qazanmasına imkan verir. Məsələn, əgər fərd hər hansı bir istehsal müəssisəsində bir istiqamət üzrə təcrübə qazanırsa, ailə təsərrüfatlarında baxmayaraq ki, bəzi hallarda işlər yaxınlar arasında bölüşdürülür, hər kəs ümumi işin gedişi (məhsulun hazırlanması, qablaşdırılması, saxlanılması, satışı və sair) haqqında müəyyən biliklərə malik olur. Yəni ümumi mənafe naminə birlik hissi ailəni daha da birləşdirir, heç kim özünü mütləq hakim hesab etmir və onlar, tədricən, inkişaf edərək peşəkar menecerlərə, səmərəli idarəedicilərə çevrilirlər.

Ailə təsərrüfatlarının inkişaf etdirilməsinin digər əhəmiyyəti bundadır ki, ünvanlı sosial yardım alan ailələr dövlət büdcəsindən asılı qalmasınlar, əksinə, bu büdcədən yararlanaraq öz işlərini qura bilsinlər. Artıq muxtar respublikamızda bu işin gözəl nümunəsi var. Beləliklə, ailə təsərrüfatlarının inkişaf etdirilməsi, ilk növbədə, ailələrin özünü məşğulluğunu təmin edir, digər tərəfdən, ailə üzvlərinin ümumi daxili məhsulda, deməli, həm də ölkənin sosial-iqtisadi inkişafında payı olur.

Hazırda muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyətinə baxsaq, bu fəaliyyətin, əsasən, kənd təsərrüfatı sahələri üzərində qurulduğunu görərik. Bu da təbiidir, çünki ölkəmiz, eləcə də muxtar respublikamız mühüm aqrar potensiala malikdir. Eyni zamanda bu sahədə keçmiş ənənələrə söykənən təcrübə formalaşıb. Ancaq unutmamalıyıq ki, ailələrin kollektiv əməyi digər sahələri də əhatə edir. Müxtəlif sənətkarlıq məmulatlarının hazırlanması, o cümlədən mini toxuculuq sənayesi, turizm və digər sahələr buna misal ola bilər.

Ailə təsərrüfatlarının dünyada belə bir təcrübəsi də var ki, belə təsərrüfatlara dövlət dəstəyi qısa zamanda onların kiçik və orta sahibkarlıq subyektlərinə çevrilməsində əsaslı rol oynayır. Bu da daim öz biznesini inkişaf etdirmək, fəaliyyətini daha da genişləndirmək istəyən ailə üzvləri üçün böyük fürsət sayılır. Ailə biznesinin isə digər biznes strukturlarından əhəmiyyətli dərəcədə fərqi var. Yenə də dünya təcrübəsinə nəzər salsaq, görərik ki, ailə biznesi idarəçiliyində hər hansı bir qərarın verilməsi, adətən, ailə üzvlərinin həmfikir olmasından sonra yaranır. Ancaq bəzən korporativ şirkətləri idarə edən menecerlər hər hansı bir qərarın verilməsində daha bürokratik davranırlar. Buna görə də ailə bizneslərində idarəçilik daha səmərəli və etibarlı prinsiplər üzərində aparılır. Bəlkə də, buna görədir ki, böhran dövrlərində ailə şirkətləri digərləri ilə müqayisədə daha dayanıqlı olurlar. Mütəxəssislər bunu onunla izah edirlər ki, ailə etibarlılıq, qarşılıqlı inam deməkdir. Bu mənada, ailə münasibətlərinə söykənən biznes modeli də ən çətin anlarda belə, etibarlı bir struktura çevrilir.

Sonda bir məsələni də qeyd etmək istərdik ki, bu gün muxtar respublikamızdakı ailə təsərrüfatlarının fəaliyyətində ən əhəmiyyətli tərəflərdən biri də brendinq prosesinə başlamaqdır. Bunun yolu, ilk növbədə, istehsal olunan məhsulların ümumi bir ad altında markalamaq və istehlakçılara təqdim etməkdən keçir. Brendinq prosesi uzun bir prosesdir. Burada məqsəd istehsal olunan məhsulun digərlərindən fərqliliyini, əlavə dəyərlərini bazara tanıtmaqdır. Yəni istehlakçı məhsulu aldıqda onu sahibi tərəfindən müəyyən olunmuş “ad”la alır və sahibkar da bu adın imicini qorumaq üçün daim keyfiyyətli məhsul istehsal edir və ya etməyə məcburdur. Nəticədə, həmin ad getdikcə brendləşir, hər kəs tərəfindən qəbul olunur, dəyər qazanır. Brend məhsullar bazardakı eyni məhsullarla daim rəqabətdə olur. Rəqabət isə, sözsüz ki, keyfiyyət yaratmağın təməl prinsipidir. Ümid edirik ki, tezliklə yerli bazarda müxtəlif ailə brendləri ilə qarşılaşacaq, ailə təsərrüfatlarını kiçik sahibkarlıq subyektinə çevirməyi bacaran sahibkarların sayının artdığının şahidi olacağıq.

**Səbuhi HƏSƏNOV**

# "Ailə təsərrüfatları ili"dir

## Ailə təsərrüfatçıları festivala hazırdır

### Onlar qalib olmaqda iddialıdırlar

*Naxçıvan Muxtar Respublikasının ərazisi və torpaq-iqlim şəraiti burada kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün əlverişlidir. Bu səbəbdəndir ki, muxtar respublikamızda əməkqabiliyyətli əhalinin böyük bir hissəsi məhz aqrar sektora məxsus ərazilərdə, yəni kəndlərdə məskunlaşıb. Deməli, kənd sakinləri, torpaq mülkiyyətçiləri elə yaşadıqları yerdə öz məşğulluqlarını təmin edə bilirlər. Bu isə ailə təsərrüfatçılığının inkişafına, eləcə də daxili bazarın yerli məhsullarla təmin edilməsinə öz töhfəsini verir. Buna görə də son illər Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının yaradılmasına və inkişafına diqqət artırılıb.*



Son illərdə muxtar respublikada ənənə halını alan, müxtəlif yerli məhsulların kütləvi sərgi-satışlarının təşkil edildiyi "Göycə" "Kətə", "Arıçılıq məhsulları – bal" və "Ailə təsərrüfatı məhsulları" festivalları istehsalçılar və istehlakçılar tərəfindən yüksək dəyərləndirilir. Çünki təsərrüfatçılar istehsal etdikləri məhsulları festivalda nümayiş etdirməklə öz məhsullarının daha geniş miqyasda tanınması və satışına nail olurlar. Buna görə də hər il sözügedən festivallara böyük maraq göstərilir. Həmin təsərrüfatçılar "Ailə təsərrüfatları ili"nə təsadüf etməsi ilə xüsusi əhəmiyyətə malik növbəti "Ailə təsərrüfatı məhsulları" festivalına da səylə hazırlaşıblar.

Belə ailə təsərrüfatçılarından biri də Şahbuz rayonunun Ayrınc kənd sakini **Sürəyya Quliyeva**dır. Hansı ki o, yüzlərlə hektar sahədə müxtəlif kənd təsərrüfatı məhsulları yetişdirir, satışını təşkil edərək ailəsinin xoş güzəranını təmin edir. Hər səhər təsərrüfatına idarə etdiyi "Niva" avtomobili ilə gələn Sürəyya xanımın fəaliyyətini nümunəvi edən təkcə yüzlərlə hektar sahəyə zəhmət təri tökməsi deyil. O həm də bu sahələri şəxsi traktoru ilə əkib-becərir. Əldə etdiyi bol məhsulu isə özünün idarə etdiyi yük avtomobili ilə satış yerlərinə və soyuducu anbarlara daşıyır.

Qeyd edək ki, əməksevər təsərrüfatçının



zəhməti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, ötən il "Tərəqqi" medalı ilə təltif olunub. Bu il isə Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən səmərəli fəaliyyətinə görə təltif olunub.

Bu dəfə onunla festivala çıxaracağı məhsulları hazırlayarkən həmsöhbət olduq. Sahələrdən yığılmış kartof, müxtəlif meyvətərəvəzlər, onlardan hazırlanmış turşu, mürəbbə, kompot və digər qablaşdırılmış məhsullar ilk baxışdan diqqətimizi cəlb etdi.

Sürəyya Quliyeva, əsasən, taxılçılıqla məşğul olsa da, səxavətli torpağın verdiyi imkanlardan digər təsərrüfat sahələrində də istifadə etdiyini bildirdi. O, taxılçılıq, bostan, tərəvəz məhsulları yetişdirməklə yanaşı, həm də bol məhsul verən meyvə bağının da sahibidir. Kəndin əlverişli iqlim şəraitindən, gülçiçəkli çəmənlərindən yararlanaraq arıçılıq təsərrüfatını da genişləndirib. Arı ailələri yaz aylarında Sürəyya xanımın al-əlvan çiçəyə bürünən meyvə bağından, çiçəkləmə dövrü bitdikdən sonra isə şəfalı Şahbuz dağlarının zəngin bitki örtüyündən yararlanaraq keyfiyyətli, xoşətirli bal hasil edirlər. Ailə təsərrüfatçısı bu məhsulları bazara çıxararaq yaxşı qazanc götürür.

Sürəyya xanım dedi ki, hər il keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında fəal iştirak etmişəm. Keçən festivallarda məhsullarımızla tanış olan iştirakçıların bir çoxu, demək olar ki, bizim daimi müştərilərimizə çevrilib. Təsərrüfatımızda yetişdirdiyimiz məhsulları sifariş əsasında həmin müştərilərə göndəririk. Bizim məhsulların sorağına kəndimizə gələnlər də az deyil. Ən çox maraq isə müxtəlif meyvə və tərəvəzlərdən hazırladığımız turşulardır. Bu marağı gördükdə zəhmətə bağlılığımız daha da artır. Odur ki, növbəti festivala daha böyük həvəslə hazırlaşmışıq.

Sürəyya xanım bildirdi ki, ötənilki festivalda üzüm yarpağına, beçə ətinə, yumurtaya, müxtəlif meyvələrdən hazırlanan araq məhsullarına da maraq çox oldu. Çıxardığımız məhsullar elə yerindəcə satıldı. Ötən il keçirilən festivalda fəal iştirakıma görə diploma layiq görüldüm. Bu da bizə böyük zövq və daha əzmlə işləmək ruhu bəxş edir. Buna görə də bu il həmin məhsulların çeşidini daha da artırmışıq. Bu festivallar biz təsərrüfatçıların sağlam rəqabətinə də zəmin yaradıb. "Ailə təsərrüfatları ili"ndə keçirilən bu festivalda birinci yeri tutmağa iddialıyam.

Babək rayon Nehrəm kənd sakini **Tofiq Abutalıbov**la söhbətimiz zamanı dedi:

– Uzun illərdir ki, təsərrüfatla məşğulam. Bol bərəkətli torpaqlarımız var. Ancaq bir vaxtlar kənddə əkin sahələrini suvarmaq problemi məhsuldarlığa nail olmağa imkan vermirdi. Son illər dövlətimizin qayğısı nəticəsində suvarma kanallarının çəkilməsi, əkin sahələrinin su ilə təmin olunması sayəsində məhsuldarlıq ildən-ilə daha da artır. 20 ildən artıq bir müddətdir ki, öz güzəranımı torpaqdan əkib-becərdiyim və tədarük etdiyim məhsulların satışından əldə etdiyim gəlirlə qurmuşam. Taxıl və bostan bitkilərinin əkininə üstünlük



verdiyini deyən Tofiq Abutalıbov qeyd etdi ki, ötən təsərrüfat ilində 40 hektardan artıq sahədə taxıl əkini apardım və hər hektardan ortalama 28 sentner məhsul əldə etdim. Bundan əlavə, 3 hektar sahədə əkdiyim bostan və tərəvəz bitkilərindən də bol məhsul götürmüşəm.

O deyir ki, təsərrüfatında qarpız, pomidor, xiyar, çaşır və sarımsaqdan müxtəlif turşular da hazırlanır. Çeşid çox olduqda alıcı marağı da artır. Bir neçə ildir ki, həyətimdə üzüm bağı da salmışam. Üzümdən çaxır, sirkə, abqora (tam yetişməmiş üzümdən alınan su) və doşab hazırlayıram. Təsərrüfatımda həm alma sirkəsi, həm də qarpız doşabı istehsal edirəm. Bundan əlavə, qış azuqəsi kimi badımcan, sarımsaq və qovun qurusu da istehsal edib satışa çıxarırıq.

Müsahibim bildirdi ki, bu il həyətimdə əkdiyi güllərin ləçəklərini toplayıb gülab da istehsal edib. Dərman bitkilərini yığıb qurutmaqla da məşğul olmağa başlayıb. O dedi:

– Ötən il Naxçıvan şəhərində keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında ikinci yerə layiq görülmüşəm. Festivalın payız fəslində təşkil edilməsi bizim üçün çox əlverişlidir. Çünki bu fəsildə yerli məhsulların növ və çeşidi daha çox olur. Festivalda hər kəs istədiyi məhsulu münasib qiymətə ala bilir. Eyni zamanda belə tədbirlərdə biz yeni alıcılarla tanış olmaq imkanı qazanırıq. Göstərilən belə diqqət və qayğı bizi təsərrüfatla məşğul olmağa daha da ruhlandırır.

Şərur rayonunda hazırda qadın ailə təsərrüfatı başçısı çoxdur. Onlardan biri də rayonun Cəlilkənd sakini **Familə Mirzəyeva**dır. Onu nəinki kənddə, hətta bütün Şərurda fəal torpaq mülkiyyətçisi kimi tanıyırlar. Familə xanım ötən il ölkə başçısının müvafiq sərəncamı ilə kənd təsərrüfatının inkişafında xidmətlərinə görə 3-cü dərəcəli "Əmək" ordeni



ilə təltif edilib. Əkib-becərmək zəhmət tələb edən iş olsa da, bu çətinliklər onu qorxutmayıb, əksinə, torpağa daha möhkəm tellərlə bağlanıb. Elə onunla söhbətimiz də torpağa sahiblənməyin qadınlarımız üçün üstünlükləri barədə oldu.

Familə Mirzəyeva bildirir ki, bu gün Naxçıvanda çox sayda qadın ailə təsərrüfatı başçısı vardır. Onlar qazandıqları uğurlarla bu sahə ilə məşğul olmaq istəyən, ancaq müəyyən səbəblər üzündən başlamağa tərəddüd edən digər qadınlarımızı da bu işə təşviq edirlər. Müsahibim deyir ki, əvvəllər işə başlayarkən bir çox insanlar onun buna gücünün yetməyəcəyini deyirdilər. Ancaq heç bir maneəyə görə ruhdan düşməyib, addım-addım da olsa, uğura gedən yolda irəliləyə bilib. 1999-cu ildən təsərrüfat qurmağa başlayıb və dövlətimizin diqqət və qayğısı sayəsində bütün çətinliklərə sinə gərib. Əkin-biçinlə məşğul olmaqla bərabər, mal-qara da saxladığını deyən həmsöhbətim diqqətə çatdırır ki, festivala müxtəlif turşular, mürəbbələr, ağartı məhsulları çıxaracaq. 20 arı ailəsinə də sahib olan təsərrüfatçı deyir ki, ötən ay keçirilən "Arıçılıq məhsulları – bal festivalı"nda da iştirak edib. 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan edilməsinə çox sevindiyini bildirir və qeyd edir ki, bu qərar bütün təsərrüfat sahibi olan qadınlara da stimul olacaq.

**Yaşar Həbibov** Ordubad rayonunun Ələhi kəndindəki baytarlıq məntəqəsində çalışır. Kənd sakinləri onlara məxsus olan mal-qaranın sağlam böyüdülməsində, ekoloji sağlam ət, süd və süd məhsullarının istehsalında onun fəaliyyətini yüksək dəyərləndirirlər. O, muxtar respublikada ailə təsərrüfatı yaradan ilk zəhmət adamlarından biri kimi müxtəlif məhsullar yetişdirməklə məşğul olur, təşkil olunan kənd təsərrüfatı məhsullarının satış-yarmarkalarında, müxtəlif festivallarda fəal iştirak edir. İstehsal etdiyi məhsullar alıcılar tərəfindən razılıqla qarşılanır. Heyvandarlıqda, bağçılıq, kartofçuluq və arıçılıqda zəngin təcrübə qazanan və bu sahələrdə fəaliyyətini genişləndirən Yaşar Həbibov



həm də müxtəlif meyvə araqlarının çəkilməsi, çaşır, baldırğan və digər turşuların, süd və süd məhsullarının hazırlanması ilə məşğuldur.

Onunla söhbət zamanı bildirdi ki, bu gün ailə təsərrüfatları hərtərəfli qayğı ilə əhatə edilib. Təsərrüfat sahiblərinə güzəştli kreditlərin verilməsi, məhsulların qablaşdırılmasına köməklik göstərilməsi, onların satışının təşkili muxtar respublikada ailə təsərrüfatlarının sayının gündən-günə artmasına səbəb olub. Buna görədir ki, diyarımızın hər bölgəsi üçün xarakterik sayılan məhsulların istehsalı genişlənib.

Yaşar Həbibov onu da vurğuladı ki, təsərrüfatların təcrübələrinin artırılması üçün həyata keçirilən tədbirlər bəhrələrini verməkdədir. Muxtar respublikada fəaliyyət göstərən ailə təsərrüfatçılarının bu ilin may ayında Ordubad şəhərində keçirilən görüşü onların bir-birləri ilə əlaqələrini xeyli genişləndirib.

Öyrəndik ki, Naxçıvanqalada keçiriləcək "Ailə təsərrüfatı məhsulları" festivalına o da xeyli çeşiddə məhsul çıxaracaq.

Bu gün muxtar respublikamızın ərazisində geniş yayılmış şəfalı bitkilərin toplanması, qurudulub qablaşdırılması və satışı ilə məşğul olanlar da çoxdur. Onlardan biri də ailə təsərrüfatçısı, Şərur rayon Aşağı Yaycı kənd sakini, 64 yaşlı, on ildən artıqdır ki, dərman bitkilərini toplamaqla məşğul olan **Ağa Əliyev**dir. Onunla həmsöhbət oluruq:

– Min dərd varsa, min bir də dərmanı var, – deyən atalarımız qədim dövrlərdən bitkilərdən hazırladıqları dərmanlarla xəstəlikləri müalicə ediblər. Bu bitkilər haqqında məlumatlar nəsildən-nəslə şifahi şəkildə keçib. Doğma diyarımın hər dağında, dərəsində bitən bitkilər can dərmanıdır. Burada doğulub boya-başa çatan adam hansısa şəhərə gedəndə də yaşaya bilmir. Çünki dağların bumbuz bulaqları, tərtəmiz havası, min bir dərdin dərmanı olan otları, çiçəkləri olmadan yaşamaq çətindir. Hələ uşaq çağlarından nənəmdən, babamdan öyrənmişəm bu bitkilərin can dərmanı olduğunu. Amma bu iş kənardan göründüyü kimi elə də asan deyil. Hər bitkini yaxşıca "tanımasan", xeyrini görə bilməzsən. Bir də ki, hər dərman bitkisinin özünün toplanma vaxtı var. Onu düzgün formada yığıb qurutmaq, saxlamaq lazımdır. Bununla bağlı kitablardan da məlumatlar toplayıram. Müsahibim növbəti "Ailə təsərrüfatı məhsulları" festivalında satışa çıxaracağı dərman bitkilərinin bir neçəsi haqqında məlumat da verir:

– Yol kənarlarında hər gün rastlaşdığımız dəvətikanı ağrı, sarılıq daxil olmaqla qaraciyərlə bağlı bütün problemlərə kömək edir. Araşdırmalara görə, bitkidə olan bəzi aktiv maddələr xərçəng əleyhinə xassələrə malikdir. Öddaşı meydana gəlməsini aradan qaldırmaq üçün də dəvətikanı bitkisi faydalıdır. Dəvətikanı infeksiya və göbələklərin müalicəsində, zəhərlənmələrdə olduqca təsirlidir. Diabetə qarşı yaxşı təsir göstərir. Böyrək, mədə, mədəaltı vəzi, malyariya, yel, vərəm, ateroskleroz, başağrısı xəstəliklərində istifadə edilir.

Adi müalicə bitkisi kimi gördüyümüz üvəz çörəyin qıt olduğu illərdə yerli sakinlərin, bu dağlarda döyüşən oğulların qidası olub. Çölçülükdə çörəyi əvəz edən bu bitkiyə "əppəkli" adı da verilib. Onun meyvəsindən mədə-bağırsaq, tənəffüs yolları xəstəliklərinin müalicəsində də istifadə olunur.

Müsahibim deyir ki, nənə-babalarımız iynə-dərmanın olmadığı vaxtlarda uşağı da, böyüyü də bələd olduqları bitkilərlə müalicə ediblər. Belə bitkilərdən biri də mərmərikdir. O, turşməzə, susuzluğu yatıran giləmeyvədir. Böyrək yollarının iltihabı və duz qırıntıları ağrılarında şəfalı bitki kimi istifadə edilir. Onun dəmləməsi böyrəklərdə olan kiçik daşları və kristal duzları əridir. Mərməriyin köməyi ilə bir çox insan şəfa tapıb. İşimin ən çox sevdiyim cəhəti də budur. Elə festivala 30 çeşiddən çox qablaşdırılmış dərman bitkisini də bu məqsədlə çıxaracağam. Bu bitkilərdən şəfa tapacaq insanların savabından bizə bu şəraiti yaradanlara da çatır.

*Göründüyü kimi, builki ailə təsərrüfatçılarının hər biri festivalda qalib olmaq da iddialıdır. Öz halal zəhmətinə güvənən təsərrüfat sahibləri ilə söhbətlərimizdən də bəlli olduğu kimi, onlar bu festivalda daha fərqli məhsullarını nümayiş etdirməklə buna nail olmaq üçün əsl əmək yarışına giriblər. Bu məhsulların çeşid və keyfiyyətini, nümunəvi qablaşdırılmasını festivalda iştirak etməklə öz gözlərinizlə görməyiniz gərəkdir. Elə isə buna tələsin. Həm diyarımızın min bir sərvəti və onu yetirib-bitirən halal zəhmət adamları ilə fəxr edəcək, mədəni istirahət edib zövq alacaq, həm də evlərinizə ürəyiniz istədiyiniz məhsullarla zənbildolusu qayıdacaqsınız.*

**Ramiyyə ƏKBƏROVA**
**Gülcamal TAHİROVA**
**Pərviz HACILI**

***Təbiətin “sarı gəlin”i payızın bərəkətli günlərini yaşayırıq. Budaqlardakı heyvanın, armudun, almanın ətri bağları bürüyüb. Hansı obaya, kəndə üz tutursan, orada hamı qış tədarükündədir. Kimi meyvələrdən dərir, kimisi cəviz, fındıq, badam ağaclarının barını toplayır, kimisi çilləyə qarpız seçir, kimisi isə yazdan bordağa bağlayıb xüsusi bəslədiyi mal-heyvanı kəsib ətini qış azuqəsi üçün qovurmağa hazırlaşır...***

# Naxçıvan mətbəxinin şahı – *QOVURMA*

Xalqımız ta qədimdən bu günə kimi ətli yeməklərə meyilli olub. Hər bir azərbaycanlının süfrəsi bu gün də ətsiz olmur. Azərbaycanın şimal rayonlarında ətin qurudulub saxlanıldığının şahidi olsam da, payızda əti qovurub qışa tədarük edilməsinə rast gəlməmişəm. Diyarımızda isə, demək olar ki, hər bir ailə, büdcəsindən asılı olmayaraq, bu qış tədarükünü görür. Bu mətbəx nümunəsi təkcə Naxçıvana məxsus olduğu üçün də elə “Naxçıvan qovurması” adlanır.

Biz də oktyabr ayının son günlərində Naxçıvan şəhərindən Şərur rayonuna uzanan yolun gözəl, könüloxşayan payız mənzərələrini seyr edə-edə mənzil başına çatır, bu gün qovurma hazırlığı görən Yasəmən nənənin qonağı oluruq. O, Bakı şəhərində dünyaya göz açsa da, gənc yaşlarından Şərur elinə gəlin köçüb. Yaşı artıq 80-ni ötmüş Yasəmən nənə əlli ildən çoxdur ki, Şərurda yaşadığına görə özünü buralı hesab edir...

Evin cavanları nənənin məsləhətlərini dinləyə-dinləyə ona kömək edirlər. Biri səhər tezdən qəssabın kəsdiyi quzunu doğrayır, digəri ocağı hazırlayıb odun tədarük edir, o biri isə ocağın üzərinə qoyulacaq mis qazanları gil ilə yaxşıca suvayır ki, ocağın hisini, qarasını sonra yumaq asan olsun.

Nənənin söhbəti: – Buraya gəldiyim gündən elə isinmişəm ki bu torpağa, elə bilirəm burada göz açmışam dünyaya. Bu qədim elin bütün adətlərini öyrənmişəm. Xəmir yoğurub təndirdə lavaş da yapmışam, mal-heyvan saxlayıb nehrə də çalxalamışam, ət də qovurmuşam. Rəhmətlik qayınanam mənə bildiyi nə varsa, hamısını öyrədib. Hər evin, hər elin özünəməxsus adətləri var. Və bu adətlər uzun illər keçməsinə baxmayaraq, yaşadılır. Hər bir ailə yazda qışlıq qovurmanın tədarükünü görür. Kimi qaz, ördək, hindquşu, kimisi keçi, qoyun, kimisi isə dananı nişan eləyib “qışlıq qovurma üçün ətlikdir”, – deyə bəsləyir. Həmin heyvanlara xüsusi olaraq baxılır. Danalar, quzular bordağa bağlanır. Qovurma üçün saxlanan hindquşuna hər gün bir cəviz veririk ki, əti yağlı olsun. Ətliklə bərabər obalarda yay südündən qovurma üçün yağ tədarükü də görülür. Nənə söhbətinə davam edə-edə ocağa tərəf yönəlir, deyir ki, qovurmanın dadına təsir edən səbəblərdən biri də ocağa hansı ağacdan olan odunun qoyulmasıdır. Çünki odun yananda onun tüstüsünün iyi yeməyə çökür. Ona görə də ocaqda alma, üzüm, tut kimi bar ağaclarının qurumuş budaqlarından yandırmaq lazımdır. Bəzi ağaclar da var ki, onların oduncaqlarını ocağa qoymazlar, çünki o ağaclar müqəddəs sayılır.

Nənə ocağı çır-çırpı ilə qalayır və deyir ki, qoyun ocağın acı tüstüsü getsin, sonra qazanı asın. İki-üç dəqiqəyə ocaq yanıb alışır. İçində ət və su olan qazan ocağa asılır. Yasəmən nənə bildirir ki, bir məclis qazanına beş-səkkiz kiloqram arası ət tökülməlidir. Təcrübəli qadınlar bilirlər ki, qazana artıq ət töküləndə yeri dar olur və onu qarışdıranda əzilir. Buna həm əti qaynadanda, həm də qovuranda diqqət etmək lazımdır. Az da tökmək olmaz, onda da ətin suyu dadsız olar.

Yan-yana qalanan iki ocağın digərinin üstünə də başqa bir qazan asıldığını görəndə orda nə var? – deyə soruşuram. Nənə deyir: – Adətən, qovurmalıq quzunu seçəndə diqqət etmək lazımdır ki, quyruğu böyük olsun. Bu da ona görədir ki, əti həmin quzunun quyruğunu əridib onun yağı ilə qovururuq. Qovurmanın dadlı və keyfiyyətli olması, uzun müddət saxlanıla bilməsi üçün ona yalnız kəsilmiş heyvanın quyruq, yaxud iç yağı üzərini tam örtmək şərtilə əlavə olunmalıdır. Yəni “öz yağı özünü basmalıdır”. Üzərinə başqa yağlar əlavə olunmuş qovurmanın ömrü də, dadı da az olar. Bax, elə bu qazanda da quyruq əridirik. Elə olmalıdı ki, ət qaynayıb bişənə kimi yağ süzülüb hazır olsun. Onun hazırlanma qaydasından da danışan ev sahibi deyir:

– Quyruq bütöv şəkildə yuyulub aşsüzənə qoyulur ki, suyu təmiz süzülsün. Sonra onu çox da kiçik olmayan hissələrə bölürük. Quyruğu çox kiçik hissələrə bölmək məsləhət deyil, çünki belədə tez yanar. Hazır quyruğu bir qazana töküb çox da iti olmayan ocağın üstünə asırıq. Vam odda bişən quyruq yavaş-yavaş əriyir və qızarmağa başlayır. Tam qızardıqdan sonra onun yağını başqa təmiz qaba süzürük. Yağını əti qovurmaq üçün işlədir, cızdığı isə çini bir qazana yığıb soyuducuda saxlayırıq. Bundan dolma, sulu əriştə bişirəndə istifadə edirik.

Ocağın üzərində bişməkdə olan ətin kəfini yığan evin qızı Minayə xanımın səsi eşidilir:

– Ana, bir yaxın gəl bu ətin tamına bax gör, duzu qaydasındadır?

Yasəmən nənə ocağa yaxınlaşıb kəfkirlə qazandan götürdüyü ətin dadına baxır və deyir: – Qovurmanı uzun müddət saxlayan və dadlı edən onun duzudur. Gündəlik bişirdiyimiz yeməklərdən fərqli olaraq qovurma nisbətən duzlu olmalıdır. Naxçıvan duzundan istifadə etmək qovurmanın dadına dad qatır. El arasında deyirlər ki, qovurmanı yaza çıxaran onun duzudur – Naxçıvanın daş duzu. Duzu az olan qovurma hələ qış gəlməmiş dadını və keyfiyyətini itirər.

Artıq günortadır. Nənə ilə söhbət edə-edə Minayə xanıma qoşulur, bişmiş əti aşsüzənlərə tökürük. O deyir ki, qovurulmaq üçün pörtlədilən ətin suyuna bizim yerlərdə “təngov” da, “işgənə” də deyilir. “Qovurma edilən gün ailə mütləq süfrə başına yığışıb quru lavaş doğraması ilə bu yeməkdən ləzzətlə yeyər. Qızım, qovurma bişiriləndə ətri bütün məhəlləyə yayılır. Qovurmadan da, işgənədən də qonum-qonşuya pay tutmaq dədə-babadan adətimizdi, axı xəstəsi, yaşlısı, uşağı olan var”, – deyə Yasəmən nənə ət əlavə edilmiş boşqablara işgənə çəkib qonşulara da göndərir.

Nahardan sonra hazır əti ikinci ocağın üstündə dağ olan quyruq yağının içərisinə tökürük. Minayə xala əti taxta qaşıqla qarışdırır və bildirir ki, qovurmalıq əti çox qaynatmaq olmaz, çünki onda onu qovuranda həm yaxşı qızarmaz, həm də qarışdırdıqca parçalanar. Bir məqamı da vurğulayan Minayə xala deyir ki, Şərur rayonunun bir çox kəndlərində qovurmanı iki cür hazırlayırlar, onlardan biri ətin qaynadıb süzülərək qızardılmasıdır, digəri isə onun suyunu süzmək əvəzinə hər qazana bir-iki stəkan su töküb öz suyunun çıxması üçün vam oda qoyulmasıdır. Bu cür qovurma üçün körpə – altıaylıq quzu, ya da keçi seçilir. Ət yuyulub qazana tökülür, üzərinə az miqdarda su əlavə edilir. Belə ətin kəfi də az olur. Ət bir az vam odda öz suyunda qaynadılır və sonra ocaq itilənir, ətin suyu tamam çəkilənə yaxın əvvəldən hazırladığımız quyruq və ya əridilmiş kərə yağını üstünə əlavə edir, duzunu vururuq. Qovurma tam hazır olanda eyni qaydada qablara yığıb qışa saxlayırıq. Onu da deyim ki, bu üsulla hazırlanan qovurma daha dadlı olur.

Bu qış azuqəsi, adətən, quzu ətindən olsa da, bəzən dana, qaz, hindquşu qovuran da olur. Nənə lavaş yapmaq, əriştə kəsmək, qovurma bişirmək kimi qış hazırlıqlarının qonşuların köməyi ilə edildiyini, dövr dəyişilsə də, bu qədim adətimizin yaşadılmasının bu gün də köməyimizə çatdığını deyir.

Bu zaman Yasəmən nənə üzəri boşalan ocağın közlərini maşa ilə samovara salan qızlara səslənir: – Ay qızlar, səhər tezdən soğana, kəklikotuna kabablıq ət də basdırmışam, yaxşıca duzlamışam, gətirin kababı da çəkək, yaxşı köz var ocaqda. Nənə deyir ki, bizdə belə adətdir, qovurma bişən gün ocağın közündə mütləq kabab da çəkər, samovar salarıq. Quzunun quyruğundan, içalatından, badımcandan, bibərdən, pomidordan bir-iki şiş tutar, ocağın közündə bişirərik.

Şişə düzülən tərəvəzlərin, közə qoyulan kartofun, heyvanın bir-birindən xoş ətri həyəti bürüyəndə Yasəmən nənə ona kömək edən, uzun illərdir, aşpazlıqla məşğul olan qonşu Nazilə xalaya da deyir ki, bir o da baxsın qovurmanın dadına, hazırdırsa, vedrələrə yığılsın. Nazilə xala ocağın üstündəki qovurmanın duzuna, bişib-bişməməyinə baxır, hazır olduğunu bildirir. Əvvəlcədən yuyulub qurulanmış çini vedrəyə və saxsı küpəyə əvvəl əti yığır, sonra yağı süzüb üzərinə tökür. O deyir ki, qovurmanı yığdığımız qabın içərisi quru olmalıdır. İsti-isti yığılan qovurmanın ağzı örtülsə buğlanar, necə deyərlər, “tərləyər” və qapağında yaranan su yağa qarışar, bu da qovurmanın tez bir zamanda keyfiyyətini itirməsinə səbəb olar. Elə ona görə də qovurmanı yığdığımız qabın qapağını örtmürük. Bunun yerinə ya aşsüzən, ya da pambıq parça çəkirik ki, soyusun. Bir müddət sonra onun yağı donduğu üçün aşağı enir. Bu zaman ətin üstü örtülənə kimi yağ tökür və qapağını bağlayırıq. Nazilə xala onu da əlavə edir ki, qovurma hazırlandığı vaxtdan ən azı qırx gün sonra yeyilir. Onun əsl dadını onda hiss edərsiniz. Bu gün qovurulan əti sabah yesəniz, onda elə sadə qızarmış ət dadı hiss edərsiniz. Dədə-babadan qalan bu adətə görə, oktyabrın sonlarında hazırladığımız qovurmanı qablara yığıb qapağını bağlayır, bir də çillə gecəsi açırıq. Evdar qadınlar bu əvəzsiz qış ruzisindən elə qənaətlə istifadə edirlər ki, yaza da qalır. Rəhmətlik anam deyərdi ki, əsl evdar qadın odur ki,



onun qovurduğu qovurmadan yaza da qalsın. Yaz ki gəldi, göy gurlayıb çöldə-bayırda bitən pencərin halallığını verdi, bax onda qovurma ilə hazırladığımız pencər yeməklərinin təndir lavaşı ilə dadına dad çatmır.

Artıq əti qovurub yekunlaşdırdıq, evdəki qonaqlarla birlikdə həyətdəki qədim nalbəndin kölgəsində açılmış süfrənin başına yığılır, işgənənin, qovurmanın, isti kartof, heyva, badımcan, bibər, pomidor, içalat kababının dadına baxırıq. Naxçıvan lavaşı, qovurması, pendiri, kəklikotu çayı süfrəyə ayrıca bir gözəllik verib.

Nənənin şirin söhbətindən, qonaqpərvərliyindən doymaq olmasa da, şəhərə qayıtmağın vədəsi yetib, – deyib süfrə başındakı xanımlarla sağollaşıb yola düşürük. Biz oradan ayrılanda artıq hava qaralmışdı. Həyətdə qalanan tonqalların közü hələ də ətrafa şölə saçırdı. Ocağımız daim yanar, süfrələrimiz bərəkətli olsun, – deyərək bir gün sonra “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçiriləcək növbəti “Ailə təsərrüfatı məhsulları” festivalı haqqında düşünürəm: “Nə yaxşı ki milli-mənəvi dəyərlərimizin yaşadıldığı bir yurdun insanlarıyıq. Çünki özünəməxsus dadı, tamı ilə qədimdən bəri Naxçıvan mətbəxinin şah yeməyi olan qovurmanın müxtəlif çeşidlərini də festivalda alıb dada biləcəyik. Eyni zamanda bu yeməyin sorağını eşidib, dadını bilməyən insanları da bu əvəzsiz qış ruzisi ilə tanış etmək və budur, dadlı-duzlu Naxçıvan qovurması demək imkanımız olacaq”.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Elmi konfrans keçirilib

“Naxçıvan” Universitetində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, Xalq yazıçısı İsmayıl Şıxlının 100 illiyinə həsr edilmiş “İsmayıl Şıxlı – 100” adlı elmi konfrans keçirilib.



Tədbiri giriş sözü ilə açan universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu İsmayıl Şıxlının Azərbaycan ədəbiyyatı tarixində mövqeyindən, onun zəngin bədii yaradıcılığından danışıb.

Daha sonra universitetin müəllimləri, professor Sədaqət Həsənovanın, dosentlər Əli Həşimlinin, İman Cəfərovun, Qənirə Əsgərovanın məruzələri dinlənilib.

Məruzələrdə qeyd edilib ki, XX əsr Azərbaycan bədii nəsrinin inkişafında özünəməxsus yeri olan İsmayıl Şıxlı xarakterlər və yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik obrazlar silsiləsi yaradıb. Ədibin məşhur “Dəli Kür” romanı ictimai şüurda dönüşə və özünüdərkə yol açan mühüm ədəbi-mədəni hadisə hesab olunur. Yazıçının xalq yaradıcılığından güc alan əsərləri dərin həyat fəlsəfəsi və milli koloriti ilə oxucuların rəğbətini qazanıb. Üslub mükəmməlliyi, bədii dilin obrazlılığı, daxili aləmin təsvirinin genişliyi və əlvanlığı İsmayıl Şıxlı nəsrinə xas olan səciyyəvi cəhətlərdir.

Sonda Xalq yazıçısı İsmayıl Şıxlı yaradıcılığını əks etdirən slayd nümayiş olunub.

**Seyfur HACIMURADOV**

## “Axtarışlar” jurnalının növbəti sayı çapdan çıxıb

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təsis etdiyi “Axtarışlar” jurnalının cari ildə üçüncü nömrəsi işıq üzü görüb.




Elm və təhsil müəssisələrində çalışan əməkdaşların ədəbiyyat, folklor, dil və sənətşünaslıq sahələrində apardıqları tədqiqatların yer aldığı nəşrin növbəti sayında “Akademik İsa Həbibbəyli və Naxçıvan ədəbi mühiti”, “Azərbaycan dilinin Naxçıvan dialekt və şivələrində işlənən bir sıra leksik vahidlər haqqında”, “Azərbaycan karikatura sənətinin təşəkkülü, inkişafı və təsir dairəsi”, “Gəmiqaya qayaüstü rəsmlərində ovçuluq motivləri”, “Orta əsrlərin toxuculuq nümunələrində miniatür rəngkarlığından istifadə”, “Azərbaycanın oyma sənətində ornament xüsusiyyətlər”, “Sənətşünas Ələkbər Qasımov” və digər müxtəlif səpkili elmi məqalələr əksini tapıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

### *İtmişdir*

Qəmbərov Məmmədnağı Həsən oğlunun adına Culfa rayon Saltaq kəndində olan torpaq sahəsinin JN-1A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 758